Ədalət .- 2025.- 4 aprel(№12).-S.8.



***Əntiqə Kərimzadə***

# Ağına da lənət, qarasına da

***Məşhur bir misal var: "İlanın ağına da lənət, qarasına da". Bu məsəli adətən nənəmdən eşidirim. Onun sevmədiyi iki əşyanı və ya iki insanı müqayisə edəndə tez bu misalı çəkirdi. Onun ilanlara belə lənət oxuduğunu isə heç cür anlamırdım. İlan zəhərinin təbabətdə nə qədər faydalı olduğunu bilə- bilə onu pis xarakterli insanlarla müqayisə etməyimizi də heç zaman anlamadım. Sürünənlər sinfinə aid olan bu heyvanın dünyada 4000 növü var. Ancaq bunlardan 600-ü zəhərlidir.***

***Tibb elmi sübut edir ki, ilan zəhərini qurudulmuş halda 23 ilə qədər saxlamaq olar. İlanların haqqında maraqlı məqamlardan biri də onların başı kəsildikdən sonra belə canlılığını qorumağa davam etməsidir. Yəni asanlıqla onlar asanlıqla ölmürlər.***

***İlanların ov ovlama prossesi də diqqət çəkir. Belə ki, onlar ovunu diri-diri udan zaman nəfəs borusunun girişini bayıra çıxarır. Beləcə böyük ovu udarkən boğulmurlar. İlanların bədənlərində çox güclü maye var. Ov nə qədər böyük olsa da, həmin maye onu asanlıqla üyüdə bilir. İlanlar ovlarını səsə görə deyil, vücud istiliyi və hərəkətinə görə tapırlar.***

***Bəzi ilan növləri vardır ki, onlar ikibaşlı ilanlardır. İlanlar yemək zamanı bir- biri ilə dalaşa bilirlər.***

***Onların çoxalma prossesi də digər canlılardan fərqlidir. Belə ki, bəzi ilan növləri yumurtalayır, bəzi ilan növləri isə diri doğa bilirlər. İlanların zəhəri adətən üst dişlərində olur. Həmin zəhər onun ov əldə etməyinə çox kömək edir. Belə ki, ilan ovu tutduqda onu üst dişi ilə sıxır və zəhərini tez ötürməyə başlayır.***

***İlanların dərisi yumşaq olur. Əgər dəriləri sərt olsaydı onlar sürünəndə yaralanaraq ölərdi.***

***İlanın adı da, özü də nə qədər qorxunc görünsə də qeyd etmək lazımdır ki, ilanları çox növü zəhərsizdir. Ancaq dünyanın ən zəhərli ilanı Kral kobrasıdır. Zəhərsiz ilanlar isə ovlarına sarılaraq onlar boğurlar və beləliklə yem əldə etmiş olurlar.***

***Onlar həşərat, qurbağa, quş, balıq, kərtənkələ, siçan, yumurta və s ilə qidalanır.***

***İlanın zəhəri ilə yanaşı, dərisindən də istifadə edirlər.***

***Bildiyimiz kimi ilanlar yalnız isti havalarda torpaq üzərində görünürlər. Soyuq havalarda isə (daha çox qışda) digər sürünənləri kimi yatırlar.***

***İlanların sürünməyi nə təccüblüdür, nə də eyib. Çünki Yaradan onları məhz bu cür yaradıb. Ancaq cəmiyyətin sürünməyi, insanların sosial rifahının sürənən halda olması heç də ürəkaçan hal deyil.***

***Hə, bir də arzulayaq ki, heç kəs ilan kimi zəhərli olmasın. Əksinə hamımızın həyatı ilan dərisi kimi işıqlı və parlaq olsun.***